*Azərbaycan Respublikasının 2017-ci il 2 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# "Azərbaycan Polisinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

"Azərbaycan Polisinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 37 mm və şüaları olan səkkizguşəli lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində səkkizguşəli lövhənin üzərinə iki çevrə yerləşdirilmişdir.

2.2. Birinci çevrənin yuxarı hissəsində qövs boyunca "AZƏRBAYCAN POLİSİNİN", aşağı hissəsində "100 İLLİYİ" sözləri yazılmışdır. "AZƏRBAYCAN POLİSİNİN" və "100 İLLİYİ" sözlərinin arasında hər iki tərəfdən səkkizguşəli ulduz relyefi yerləşdirilmişdir.

2.3. İkinci çevrənin mərkəzində Azərbaycan Respublikası daxili işlər orqanlarının emblemi həkk edilmişdir.

2.4. Səkkizguşəli ulduz və onun şüaları, çevrənin konturları, emblem, sözlər və rəqəmlər relyefli olaraq qızılı rəngdədir.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfi hamar səthlidir, ortada "AZƏRBAYCAN POLİSİ 1918-2018" sözləri və rəqəmləri relyefli yazılmışdır.

3.2. Medalın arxa tərəfinin aşağı hissəsində sünbüllərdən ibarət qövs təsvir edilmişdir.

3.3. Medalın arxa tərəfində seriyası və nömrəsi həkk olunur.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal 27 mm x 43 mm ölçülü düzbucaqlı lövhəyə iki halqa və ilgək vasitəsilə birləşdirilir. Lövhəyə kənarlarından mərkəzə doğru ardıcıl olaraq 1 mm enində qızılı, 2 mm enində ağ və mərkəzdə hər birinin eni 7 mm olan, Azərbaycan Respublikası Dövlət bayrağının rənglərinə uyğun mavi, qırmızı və yaşıl rəngli şaquli zolaqlar təsvir edilmiş xara lentdən üz çəkilir.







4.2. Lövhənin ön tərəfinin yuxarı hissəsində 27 mm x 5 mm ölçüdə, üzərində relyefli palıd yarpaqları təsvir edilmiş düzbucaqlı təbəqə bərkidilir. Lövhənin arxa tərəfinin yuxarı hissəsində geyimin yaxasına bərkidilmək üçün element vardır.

4.3. Lövhənin ön tərəfinin aşağı hissəsinə 27 mm x 6 mm ölçüdə düzbucaqlı təbəqə bərkidilir. Təbəqənin üzərində milli ornamentin orta hissəsində relyefli səkkizguşəli ulduz təsvir edilir.

4.4. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 27 mm x 9 mm ölçüdə qəlib əlavə edilir.

Azərbaycan.- 2017.- 20 oktyabr.- S.2.